Məmməd Arif Dadaşzadə – 120

# Görkəmli ədəbiyyatşünas, ictimai xadim





**Azərbaycan professional ədəbiyyatşünaslığının yaradıcılarından biri, tərcüməçi, pedaqoq, nasir, ictimai xadim, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Məmməd Arif Dadaşzadənin anadan olmasının 120 illiyi münasibətilə Beynəlxalq Muğam Mərkəzində "Ədəbi üfüqlərdə" adlı bədii-musiqili mərasim keçirilib.**

Yubiley mərasimi akademik Məmməd Arif Dadaşzadənin ömür yolunu işıqlandıran videosüjetin nümayişi ilə başlanılıb.

Sonra Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Qafar Əsgərzadə alimin ömür yoluna nəzər salıb, yaradıcılığından danışıb. O bildirib ki, ədəbi-mədəni aləmdə Məmməd Arif adı ilə tanınan alim-pedaqoq elmi fəaliyyətində, təhlillərində və qiymətləndirmələrində obyektivliyi, ədaləti, gerçəkliyi qoruyub saxlayıb. Akademik Məmməd Arif Dadaşzadə bir çox elmi-nəzəri kitab, dərslik, yüzlərlə məqalə yazıb, ömrünün təqribən 40 ilini dünya ədəbiyyatından tərcümələrə həsr edib. O, sözün əsl mənasında, ədəbiyyatşünaslıq məktəbi, ədəbi tənqid və tənqidçilər məktəbi yaratmış şəxsiyyətlərdən biridir.

Mərasimdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Milli Məclisin vitse-spikeri, akademik Rafael Hüseynov və başqaları çıxış edərək bildiriblər ki, dəyərli ziyalı, bütöv bir şəxsiyyət olan Məmməd Arif Azərbaycan ədəbiyyatının və ədəbi dilinin inkişafına çox böyük töhfələr verib. Məmməd Arif Azərbaycan ədəbiyyatı tarixi tədqiqinin əsasını qoyan alimlərdəndir. O, ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi", üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi", ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi" kimi mühüm tədqiqatların müəlliflərindən və baş redaktorlarından biridir. Onun "Azərbaycan xalqının ədəbiyyatı" kitabı ingilis, fars, rus, bolqar dillərində, "Azərbaycan ədəbiyyatı" monoqrafiyası Moskvada çap olunub.

Çıxışlarda görkəmli alimin XX əsr Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslıq elminin inkişafında mühüm xidmətləri vurğulanıb. Məmməd Arif Dadaşzadənin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun yaranmasında, təşəkkülündə, strukturunun və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində xüsusi rolu olub. Məmməd Arif Dadaşzadə 1938-ci ildən Ədəbiyyat İnstitutunda fəaliyyətə başlayıb, həmin ildən şöbə müdiri, 1939-cu ilin yanvar-sentyabr aylarında direktor müavini vəzifələrində işləyib, iki dəfə bu elm ocağının direktoru seçilib. O, 1960-cı ildən ömrünün sonunadək Elmlər Akademiyasının vitse-prezidenti kimi fəaliyyət göstərib.

Bədii yaradıcılıqla yanaşı, müntəzəm olaraq Məmməd Arif dünya klassiklərinin əsərlərindən bədii tərcümələr edib. Azərbaycan oxucuları rus ədəbiyyatının korifeylərindən L.Tolstoyun "Hərb və sülh", N.Ostrovskinin "Polad necə bərkidi", M.Qorkinin "Dankonun ürəyi", "Makar Çudra", dünya ədəbiyyatından M.Servantesin "Don Kixot" və s. kimi bədii əsərlərini Məmməd Arifin tərcüməsində oxuyur.

Əməkdar incəsənət xadimi Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblı mərasimi bədi nömrələrlə müşayiət edib. Sonda görkəmli alimin nəvələri Zümrüd və Aqşin Dadaşzadələr babalarının xatirəsinə göstərilən diqqətə görə tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürlərini bildiriblər.

**T.RÜSTƏMLİ**
**XQ**